# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin və rayon (şəhər) məhkəmələrinin aparatlarının ştat sayının təsdiq edilməsi və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin "Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası rayon (şəhər) məhkəmələrinin aparatlarının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" 2011-ci il 18 aprel tarixli 45 nömrəli və "Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi Aparatının və Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsi Aparatının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" 2020-ci il 10 yanvar tarixli 2 nömrəli qərarlarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 39-cu maddəsinin I hissəsinin yeddinci abzasını rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin və Maliyyə Nazirliyinin rəylərinə əsasən Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin və rayon (şəhər) məhkəmələrinin aparatlarının ştat sayı bu Qərarın əlavəsinə uyğun olaraq təsdiq edilsin.

2. "Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası İnzibati-İqtisadi Məhkəməsinin və Naxçıvan Muxtar Respublikası rayon (şəhər) məhkəmələrinin aparatlarının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2011-ci il 18 aprel tarixli 45 nömrəli Qərarının 1-ci, 2-ci və 4-cü hissələri ləğv edilsin.

3. "Naxçıvan Muxtar Respublikası İnzibati Məhkəməsi Aparatının və Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsi Aparatının ştat cədvəllərinin təsdiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 10 yanvar tarixli 2 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, "5" mart 2025-ci il

№ 12

Naxçıvan Muxtar Respublikası
Nazirlər Kabinetinin 2025-ci il
5 mart tarixli 12 nömrəli Qərarı
ilə təsdiq edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin, Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin və rayon (şəhər) məhkəmələrinin aparatlarının**

**Ş T A T   S A Y I**

| Sıra №-si | Məhkəmə aparatının adı | Ştat sayı (vahidlə) |
|---|---|---|
| 1. | Naxçıvan Muxtar Respublikası Ağır Cinayətlər Məhkəməsinin Aparatı | 27 |
| 2. | Naxçıvan Muxtar Respublikası Hərbi Məhkəməsinin Aparatı | 25 |
| 3. | Naxçıvan Muxtar Respublikası Kommersiya Məhkəməsinin Aparatı | 20 |
| 4. | Naxçıvan Şəhər Məhkəməsinin Aparatı | 21 |
| 5. | Şərur Rayon Məhkəməsinin Aparatı | 15 |
| 6. | Babək Rayon Məhkəməsinin Aparatı | 15 |
| 7. | Ordubad Rayon Məhkəməsinin Aparatı | 12 |
| 8. | Culfa Rayon Məhkəməsinin Aparatı | 12 |
| 9. | Kəngərli Rayon Məhkəməsinin Aparatı | 12 |
| 10. | Şahbuz Rayon Məhkəməsinin Aparatı | 12 |
| 11. | Sədərək Rayon Məhkəməsinin Aparatı | 12 |